**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**Q Ə R A R I**

**Bakı şəhəri** **№ 254/5** **10 sentyabr 2014-cü il**

**«Auditorların və auditor təşkilatlarının akkreditasiyası və qeydiyyatına dair metodik göstəriş» barədə**

«Azərbaycan Respublikasinda Auditor Xidmətinin İnkişaf Konsepsiyası» nın VI fəslinin 9-cu bəndinə və Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2013-cü il 19 dekabr tarixli 248/1 saylı qərarı ilə təsdiq edilmiş Azərbaycan Respublikası Auditorlar Palatasının 2014-2016-cı illər üzrə iş planının 1.5 «Auditor xidməti ilə əlaqədar təlimatlar, tövsiyələr və metodik göstərişlərin hazırlanması» maddəsinə uyğun olaraq tərtib olunmuş «Auditorların və auditor təşkilatlarının akkreditasiyası və qeydiyyatına dair metodik göstəriş» barəsində sədrin elmi-metodik məsələlər üzrə muşaviri N.Talıbovun təqdim etdiyi materialı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

**1.** Palatanın iş planının qeyd olunan maddəsinə müvafiq olaraq hazırlanmış «Auditorların və auditor təşkilatlarının akkreditasiyası və qeydiyyatına dair metodik göstəriş» Palata Şurasının iclasında edilmiş təklif və tövsiyələr nəzərə alınmaqla yenidən işlənilsin.

**2.** Palata sədrinin elmi-metodik məsələlər üzrə muşaviri N.Talıbova tapşırılsın ki, Auditin təşkili və tənzimlənməsi idarəsi (M.Hacıyev), Qanunvericilik və hüquqi məsələlər üzrə Komitə (E.İbrahimov) və Üzvlük məsələləri üzrə Komitə (İ.Əliyev) ilə birlikdə 1 (bir) ay müddətində «Auditorların və auditor təşkilatlarının akkreditasiyası və qeydiyyatına dair metodik göstəriş» in yeni layihəsini təqdim etsin.

**3.** «Auditorların və auditor təşkilatlarının akkreditasiyası və qeydiyyatına dair metodik göstəriş»ə uyğun olaraq müvafiq tədbirlərin görülməsinin təmin edilməsi Auditin təşkili və tənzimlənməsi idarəsinə (M. Hacıyev) tapşırılsın.

**4.** Bu qərarın mətninin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**